Adımız məfkurəmizdir
29 aprel – 5 may 2025-ci il
№14
Türküstan
www.turkustan.az

Günay Rzayeva
Basqal Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru
Araşdırmaçı, yazar

# Səmaların səssiz qəhrəmanları

## Onlar Türkdürlər

(əvvəli ötən sayımızda)

*Türkiyədə isə ilk aviasiya işləri 1912-ci ildə Atatürk Beynəlxalq Hava Limanı yaxınlığındakı Səfaköydə, iki anqar və kiçik bir meydanda başlamışdır. Burada mülki aviasiyasının təşkilati təməlləri isə Ulu Öndər Atatürkün "İstiqbal göylərdədir" ifadəsinə uyğun olaraq, 1925-ci ildə qurulan Türk Təyyarə Birliyi ilə atılmışdır. Türkiyə Cümhuriyyətində də, digər ölkələrdə olduğu kimi, aviasiyanın inkişafında kişilərin rolu böyük olmuşdur. Türk aviasiya tarixinin ən önəmli simalarından biri olan Vecihi Hürquş və Çingiz Topel kimi kişilərlə yanaşı, Bedriye Tahir Gökmen və Yıldız Eruçman kimi qadınlar da bu sahədə uğurla fəaliyyət göstərmişlər. Belə qadınlardan biri də Türkiyənin ilk qadın pilotlarından biri olmuş Nezihe Viranyalı—dur. Sabiha Gökçen tərəfindən yetişdirilən dörd qadın pilota arasında (digərləri: Edibe Subaşı , Yıldız Eruçman və Şahavət Karapars ) sonuncusu kimi tanınır. Nezihe Viranyalı planörlə 100 saatdan çox, motorlu təyyarələrlə isə 2800 saatdan artıq uçuş həyata keçirmişdir. 1950-ci illərdə beynəlxalq hava akrobatikası nümayişlərində Türkiyəni təmsil etmiş, əsasən paraşütlə tullanışlarla çıxış etmişdir. Nezihe Viranyalı 1925-ci ildə Bolqarıstanın Vidin şəhərində anadan olmuşdur. Uşaq yaşlarında Sabiha Gökçenin Balkanlarda keçirdiyi hava nümayişlərini Sofiyada izlədikdən sonra aviasiyaya maraq göstərmiş və Türkiyəyə gəlməyə qərar vermişdir.*

Burada Türk Hava Qurumunun Türkkuşu Tədris Mərkəzinə daxil olmuş və şəxsən Sabiha Gökçen tərəfindən yetişdirilmişdir. Həmçinin yay aylarında İnönü düşərgələrində Emrullah Ali Yıldızdan aviasiya təhsili almışdır.

Müsahibələrinin birində Nezihe Viranyalı 16 yaşında başladığı pilotluq dövrünü belə xatırlayır:

"1925-ci ildə Bolqarıstanın Tuna çayı sahilində yerləşən Vidin şəhərində anadan olmuşam. Atam qab-qacaq ticarəti ilə məşğul idi. Mən isə uşaqlıqdan idmana böyük maraq göstərirdim. Aviasiyaya isə xüsusi simpatiyam vardı. Şəhərin üzərindən keçən bolqar təyyarələrini gördükcə, mən də bir təyyarəyə minib uçmaq arzusuyla alışıb-yanırdım. Yaşım artdıqca bu sevgi daha da böyüdü. Məni aviasiyaya yönləndirən əsas hadisə isə Balkan turnesinə çıxan Sabiha Gökçənin məndə yaratdığı dərin təəssürat oldu. Onun Türk bayraqlı təyyarəsini göydə gördüyüm an yaşadığım həyəcanı və içimi bürüyən milli qüruru sözlərlə ifadə etmək mümkün deyil."

Viranyalı ilk təcrübəsini isə belə təsvir edir: "Türkkuşuna ilk qəbul olunduğum il məni paraşütlə tullanmaq üçün təyyarənin qanadına çıxartdılar. Amma cəsarətimi toplayıb tullana bilmədim. Bir həftə otağıma çəkilib hönkür-hönkür ağladım. Daha sonra müəllimlərimin dəstəyi və təşviqi ilə ilk paraşüt tullanışımı uğurla həyata keçirdim." (https://web.archive.org/web/20160126090316/https://www.yenisafak.com/arsiv/2004/aralik/05/g07.html)

Beləliklə, arzusunu reallaşdırmaq üçün əvvəlcə paraşütçülük üzrə təhsil almış, daha sonra isə planör və pilot lisenziyası əldə etmişdir. 1955-ci ildə Hollandiya və Almaniyada keçirilən beynəlxalq nümayişlərdə paraşütçü kimi çıxış etmişdir. Amerikalı əfsanəvi pilot Jacqueline Cochran tərəfindən ABŞ-a dəvət olunmuş, Tennessi Universitetində xüsusi təqaüdlə mülki aviasiya məktəbində təhsil almışdır. 1956-cı ildə Bağdadda təşkil olunan uçuş nümayişlərində Türkkuşu heyətinin bir üzvü kimi iştirak etmişdir.

O günləri belə xatırlayır: "Amerikalı əfsanəvi pilot Jacqueline Cochran tərəfindən Amerikaya dəvət olundum. ABŞ-ın Tennessi Universitetinin Mülki Aviasiya Məktəbində təhsil alaraq diplom qazandım. Orada qalmağım üçün mənə yüksək əməkhaqqı təklif olunsa da, tərəddüdsüz 'vətənim' dedim və geri döndüm. Lakin Jacqueline Cochran ilə dostluğumuz onun 1980-ci ildə vəfatına qədər davam etdi. 1956-cı ildə İraq hökumətinin rəsmi dəvəti ilə Türkkuşu filosu ilə birlikdə Bağdada yollandım. Orada bizi böyük səmimiyyətlə qarşıladılar və nümayiş etdirdiyimiz akrobatik çıxışlara görə təşəkkürnamə ilə təltif olunduq."

Nezihe Viranyalı ömrü boyu Atatürkün formalaşdırmaq istədiyi çağdaş Türk qadını idealına uyğun bir həyat yaşamağa çalışmışdır. 1940-cı illərdə Ankarada şəxsi avtomobili olan ilk qadınlardan biri olmuş, buz pateni ilə məşğul olmuş və akordeon çalmağı bacarmışdır. O, həmçinin almanca, ingiliscə, bolqarca və rusca dillərini bilirdi. Nezihe Viranyalı, öz dövrünün cəsarətli, qabaqcıl və fədakar qadınlarından biri kimi yadda qalmış, Türkiyə aviasiya tarixində əvəzolunmaz bir yer tutmuşdur.



Şəkil 5. Nezihe Viranyalı

Türkkuşu məktəblərində yüzlərlə tələbə yetişdirmiş və uzun illər Türk Hava Qurumunda fəaliyyət göstərmişdir. Paraşütlə 100-dən artıq tullanış, planörlə 100 saatdan çox, motorlu təyyarələrlə isə 2800 saatdan artıq uçuş həyata keçirmişdir.Nezihe Viranyalı həyatının son illərini İstanbulda yerləşən bir qocalar evində keçirmişdir. Ayaq və çiyin sınıqları nəticəsində əməliyyat olunsa da, yaranmış fəsadlar səbəbilə bir ayağı amputasiya edilmişdir. 2004-cü ildə "Dünya" qəzeti tərəfindən "Türk Qadını Şərəf Mükafatı" ilə təltif olunmuşdur. Həmin ilin 22 dekabr tarixində bağırsaq xərçəngi səbəbilə İstanbulda vəfat etmiş və Karacaahmet qəbiristanlığında dəfn olunmuşdur.

Tarix sübut edir ki, qadınlar zamanın hər bir dövründə öz zəka, bacarıq və əzmkarlıqları uğurla nümayiş etdirmişlər. Onların həm ön, həm də arxa cəbhədə göstərdikləri fədakarlıqlar, müdrikliyi və liderlik keyfiyyətləri bir daha sübut edir ki, qadın yalnız ailənin deyil, bütöv bir cəmiyyətin dayağı və irəliləyişinin aparıcı qüvvəsidir.



Şəkil 4. Nezihe Viranyalı




Şəkil 6. Nezihe Viranyalının məzarı, İstanbul Karacaahmet qəbiristanlığında

Oxu, oxut, abunə ol!